Azərbaycan.- 2021.- 27 aprel. S. 3.

# Beynəlxalq avtodaşımalarda iştirak edən yerli şirkətlərin nümayəndələri ilə müzakirələr aparılıb



İqtisadiyyat və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə avtomobil nəqliyyatı vasitəsilə beynəlxalq daşımalarda iştirak edən yerli şirkətlərin nümayəndələri ilə görüş keçirilib.



İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yerli nəqliyyat müəssisələrinə və daşıyıcılara dəstək məqsədilə keçirilmiş işgüzar görüşdə dövlət qurumlarının nümayəndələri, avtomobil nəqliyyatı ilə beynəlxalq yükdaşımalar sahəsində fəaliyyət göstərən şirkətlərin təmsilçiləri iştirak ediblər. İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçısının ölkəmizdə iqtisadiyyatın digər sahələri ilə yanaşı, infrastrukturun inkişafına xüsusi önəm verdiyini vurğulayıb, bu sahəyə böyük həcmdə dövlət investisiyasının yatırıldığını, nəqliyyat sektorunun təkmilləşdirilməsi məqsədilə görülən işlər nəticəsində logistika və tranzit imkanlarının genişləndiyini diqqətə çatdırıb.

Qeyd edilib ki, ölkəmizdə aparılan uğurlu iqtisadi-siyasi islahatlara uyğun olaraq, son dövrlərdə qeyri-neft sektoru üzrə ixrac, idxal və tranzit dövriyyələrinin artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu da, öz növbəsində, beynəlxalq yükdaşımaların həcminin artmasına müsbət təsir göstərir. İqtisadiyyatın inkişafında, qarşıya qoyulmuş hədəflərə nail olunmasında infrastrukturun əhəmiyyətli rol oynadığını deyən M.Cabbarov yükdaşımalar bazarında rəqabətin böyük olduğunu, yerli şirkətlərin rəqabətə davamlılığının artırılmasının vacibliyini bildirib.

Diqqətə çatdırılıb ki, yükdaşımalarda avtonəqliyyat vasitələri ilə daşımalar böyük yer tutur. Avtonəqliyyat vasitəsilə beynəlxalq yük daşıyan yerli şirkətlərin bu sahədə payının artırılması üçün mühüm addımlar atılması zəruridir. Mikayıl Cabbarov dövlət-özəl sektoru tərəfdaşlığı çərçivəsində müvafiq dövlət qurumları, avtomobil vasitəsilə beynəlxalq yükdaşıma şirkətlərinin nümayəndələri və bu sahə üzrə ictimai birliklərin təmsil olunduğu işçi qrupun yaradılmasının məqsədəuyğun olduğunu vurğulayıb. İqtisadiyyat naziri görüş iştirakçılarını fəal müzakirələrə, açıq dialoqa dəvət edib.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev son dövrlərdə ölkənin nəqliyyat-tranzit infrastrukturunun inkişafı sahəsində görülən işlər, beynəlxalq yükdaşımalar istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib. Qeyd edilib ki, Azərbaycanda ümumi uzunluğu 19 min kilometrdən artıq olan avtomobil yollarının 4,7 min kilometrdən çoxu respublika əhəmiyyətlidir. İşğaldan azad edilmiş ərazilərimizin bərpasından sonra bu yollara daha 2 min kilometr əlavə edilmiş olacaq. Azad edilmiş torpaqlar və Naxçıvan vasitəsilə açılacaq yeni beynəlxalq tranzit marşrutları nəqliyyat-logistika sektorunda iştirakçılar üçün imkanları daha da genişləndirəcək. R.Nəbiyev milli avtomobil daşıyıcıların təkcə yerli bazarda deyil, regionda daha rəqabətqabiliyyətli olması üçün zəruri addımlardan bəhs edib. Nazir yerli şirkətləri qlobal şəbəkənin bir hissəsinə çevrilməyə, ona inteqrasiya etmək üçün səylərini artırmağa çağırıb. Bildirilib ki, innovativ, təhlükəsiz və etibarlı xidmət göstərən yerli şirkətlər beynəlxalq tərəfdaşlıq çərçivəsində regional bazarda mövqelərini möhkəmləndirə bilərlər.

Görüş iştirakçıları avtomobil nəqliyyatı ilə beynəlxalq yükdaşımalar sahəsində təkliflər səsləndirib, mövzuya dair müzakirələr aparılıb, şirkətlərin nümayəndələrinin sualları cavablandırılıb.